**Respublika.** - 2024.- 27 oktyabr. - № 237. - S. 9.

# COP29 öncəsi Qərbin qərəzi artır

**Ramidə Yaqubqızı**

**2020-ci il 27 sentyabr tarixində başlayan Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsi və regionda yaratdığı siyasi mənzərə bir sıra Qərb dövlətlərini narahat edir. Cənubi Qafqazla bağlı bütün planları alt-üst olan qlobal siyasi güclər dövlətimizin bu uğurunu həzm edə bilmir, fürsət düşdükcə qarayaxma kampaniyası aparır.**

Dünyanın diqqət mərkəzində olan ölkəmiz artıq bir çox beynəlxalq tədbirlərin ünvanına çevrilir. Bu baxımdan da beynəlxalq miqyaslı tədbir və konfransların keçirilməsi bəzi qüvvələrin qısqanclığına, heç bir məntiqi əsası olmayan iddialar irəli sürməsinə səbəb olur. Ölkəmizin yaratdığı yeni reallıqlar həmin dairələrin Cənubi Qafqaz sevdasının qarşısına sədd çəkir. Onlar məhz Ermənistanı əllərində alətə çevirərək Cənubi Qafqaza yerləşmək və nəzarəti ələ almaq uğrunda cəhd edirlər. Məsələn, Qərbin Qarabağı könüllü tərk etmiş ermənilərlə bağlı qaragüruhu boş hay-küydən və qərəzdən başqa bir şeyi ifadə etmir. Çünki erməni əsilli vətəndaşlar işğaldan azad edilmiş əraziləri özxoşlarına tərk etmişlər. Dəfələrlə dövlətimiz həmin ermənilərə vətəndaşlıq alaraq ölkədə qalmalarını təklif etmiş və bunun üçün bütün zəruri şəraiti yaratmışdı. Həmçinin, onların təhlükəsizliyinə tam zəmanət verərək Dövlət Miqrasiya Xidməti tərəfindən Qarabağ bölgəsində yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyasını təmin etmək məqsədilə Reintegration.gov.az portalı istifadəyə verilmişdi ki, buranı tərk edən şəxslər sonradan həmin portalda qeydiyyatdan keçərək təhlükəsiz şəkildə geri qayıda bilsinlər. Lakin onlar bu imkandan istifadə etmədilər. Ermənistana üz tutan bu şəxslər heç orada qalıb yaşamaq istəmirlər. Onların böyük hissəsi digər ölkələrə üz tuturlar.

Qərb isə başqa bir kontekstdən çıxış edərək Azərbaycanı tamamilə başqa şəkildə qələmə verməyə çalışır və dövlətimizin nüfuzuna zərbə vurmaq məqsədi güdür. Onların bütün cəhdləri absurd və mənasızdır. Əgər Qərb dünyada haqq və ədalət tərəfdarı olsaydı, o zaman, uzun illər etnik təmizləməyə məruz qalan ölkəmizi ittiham etməzdi. Dəfələrlə Qərbi Azərbaycan ərazisindən soydaşımızın məcburi şəkildə çıxarılıb, işgəncələrə, qətllərə və amansız davranışa məruz qalmasına nəzər yetirərdi. Özünü demokratiya və beynəlxalq hüququn carçısı kimi təqdim edən Qərb heç də haqqın, ədalətin müdafiəçisi kimi çıxış etmir.

Azərbaycan 2023-cü ilin sentyabr ayında reallaşdırdığı antiterror tədbirləri ilə bölgədə separatizmi məhv etdi. Görünür, Qərb Cənubi Qafqazdakı əsas "dayaq nöqtəsi" sayılan separatçı qüvvələrin sıradan çıxması ilə hələ də barışa bilmir. Sözsüz ki, bəzi qüvvələrin Azərbaycanda gerçəkləşdirilən mühüm beynəlxalq tədbirlər öncəsi aparılan total qarayaxma kampaniyası dünyada ölkəmizə qarşı beynəlxalq ictimai rəy yaratmaq, mövqelərini zəiflətmək və artan nüfuzuna kölgə salmaqdan ibarətdir. Adətən beynəlxalq tədbirlər zamanı dünyanın diqqəti həmin tədbirlərin həyata keçirildiyi ölkələrdə olur. Azərbaycanı gözü götürməyən dairələr şübhəsiz ki, bu məqamı xüsusi diqqətə alır və belə vəziyyətlərdə əks-təbliğat üçün hərəkətə keçirlər. Proses bu və ya digər formada illərdir davam edir. Son illər isə daha da intensiv hal alıb. Prezident İlham Əliyev çıxışlarında hər zaman dünya birliyini qlobal problemlərə qarşı mübarizədə həmrəylik nümayiş etdirməyə, regionda sülhün, əmin-amanlığın bərqərar olmasına çağırır.

Noyabrda Bakıda keçiriləcək COP29 öncəsi ölkəmizə qarşı müxtəlif xarakterli ittihamlar səsləndirilməsi dövlətimizin Qarabağ və Şərqi Zəngəzurda reallaşdırdığı layihələrə dair dezinformasiyalar yayılması da Qərbin növbəti oyunlarından biridir. Əsas səbəblərdən biri də ölkə başçısı İlham Əliyevin prinsipial və qətiyyətli mövqeyi, işğaldan azad olunan əraziləri sürətlə bərpa etməsi, ölkə iqtisadiyyatının isə dayanıqlılıq və sabitlik nümayiş etdirməsidir. Bundan narahat olan Qərb açıq şəkildə COP29 ərəfəsində Azərbaycana qarşı sistemli formada dezinformasiya təbliğatı aparır. Əlbəttə, burada məqsəd təkcə Azərbaycanın beynəlxalq nüfuzunu zədələmək deyil, eyni zamanda respublikanın enerji resurslarına çıxışını məhdudlaşdırmaq və ölkəmizi iqlim maliyyələşdirilməsi üzrə Qərbin diktələrinə tabe etməkdir. Sözsüz ki, aparılan təbliğatda Azərbaycanı qazıntı yanacağına sahib ölkə kimi ittiham etmək onun enerji strategiyasına kölgə salmaq məqsədi güdür. Azərbaycan 2004-cü ildən etibarən alternativ enerjiyə keçid strategiyasını irəli sürüb və hazırda bərpaolunan enerji siyasətinə keçidə ən çox töhfə verən dövlətlər sırasındadır. 2022-ci ilin dekabrında Buxarestdə "yaşıl dəhliz" üzrə 4 ölkə arasında imzalanmış saziş ölkədə ənənəvi enerjidən tədricən "yaşıl enerji"yə keçid siyasətinin xəyal yox, real olduğunu təsdiqləyir. Görünür, dövlətimiz beynəlxalq səviyyədə öz mövqeyini gücləndirir, iqtisadiyyatını inkişaf etdirir və müstəqil siyasət yürüdür. Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi "Azərbaycanda vəziyyət, insan

hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı qətnaməsi dövlətimizə qarşı növbəti haqsızlıqdır.